***MƏTBUAT ÜÇÜN MƏLUMAT***

**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az

**"Şəffaflıq Azərbaycan" təşkilatı Azərbaycan Respublikasının 5 regionunda 9 dekabr – ümumdünya korrupsiya qarşı mübarizə gününə həsr olunmuş "Korrupsiyaya YOX de!" şüarı altında "Milli Antikorrupsiya Həftələri" (MAH) kampaniyasını keçirir.**

26 noyabr - "Transparency İnternational" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" ("ALAC") Layihəsi, habelə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində cari ilin noyabr və dekabr aylarında təşkilatın bütün beş mərkəzlərində "Korrupsiyaya YOX de!" şüarında "Milli Antikorrupsiya Həftələri" kampaniyasını yerli KİV, QHT və könüllülərin cəlb olunması ilə həyata keçirir.

Bu kampaniya aşağıdakı göstərilən fəaliyyətlərdən ibarətdir:

- **Sosial aksiya** (qapıdan-qapıya və ictimai yerlərdə məlumatlandırma, dayanacaqlarda və digər ictimai yerlərdə A4 formatında təşkilatın pulsuz hüquqi xidmətləri haqqında elanların vurulması)
- **Təhsil müəssisələrində tələbələr və müəllimlər üçün "Təhsildə şəffaflıq və ALAC layihəsi" mövzusunda seminarlar.** Seminarların aşağıda göstərilən müəssisələrdə keçirilməsi planlaşdırılır:

  *Bakıda:* Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu.
  *Gəncədə:* *Gəncə Dövlət Universiteti, Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, Azərbaycan Texnologiya Universiteti,*
  *Lənkəranda:* Lənkəran Dövlət Humanitar Kolleci, Lənkəran Tibb Məktəbi və Lənkəran Dövlət Universiteti
  *Qubada:* *Quba Dövlət Sosial İqtisad Kolleci, Azərbaycan Respublikası Müəllimlər İnstitutunun Quba filialı*
  *Şəkidə:* Şəki Şəhər Musiqi Texnikumu, Şəki Şəhər Tibb texnikumu və Şəki Şəhər 11 saylı orta məktəb

- **"Korrupsiya ilə üz-üzə" karikaturalar kitabçasının təqdimatı.** "Qaradağ Sement ASC"-nin maliyyə dəstəyi ilə Azərbaycan karikaturaçıların rəsmlərindən ibarət "Korrupsiya ilə üz-üzə" karikaturalar kitabçası nəşr olunmuşdur və onun təqdimat mərasimi "Milli Antikorrupsiya Həftələri" kampaniyasının son günündə - dekabr ayının 11-də keçiriləcək.

*"Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi və onun layhələri haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz*